## Müəlliflərin nəzərinə

Məqalənin materialları "Elmi əsərlər" jurnalının mövzusuna uyğun olmalıdır və əvvəllər nəşr olunmayan və digər çap və ya elektron nəşrlərdə nəşr olunmayan yeni tədqiqat nəticələrini əks etdirməlidir. Məqalələr üç dildən birində (azərbaycan, ingilis və rus dillərində) qəbul edilir. Bütün məqalələr bir qayda olaraq plagiat yoxlamasından və rəy vermədən keçir. Hər bir nömrədə bir müəllifdən ən çox iki məqalə qəbul edilir. Məqalənin həmmüəlliflərinin sayının üçdən artıq olması arzuolunmazdır.

**Məqalənin quruluşu**

Məqalə strukturlaşdırılmış olmalıdır, yəni, məzmununu qısa və dəqiq əks etdirən başlıqları olan bölmələri daxil etməlidir, yəni:

• mövzunun əsaslandırılmasını və məsələlərin qısa icmalını əks etdirən **giriş**;

• **tədqiqat probleminin** açıq bir ifadəsi;

• tədqiqat probleminin həlli metodunun təsviri, tətbiq olunan şərh və əldə edilmiş tədqiqat nəticələrinin təsvir edilməsi (məqalənin məzmununa görə adlandırılan bir neçə bölmədə göstərilə bilər);

• annotasiyanı təkrarlamayan, işdə görülən işlərin sadə bir siyahısı ilə məhdudlaşmayan, özünə ümumiləşdirmə və nəticə əhatəsinin göstəricisini daxil edən **nəticə.**

**Məqalənin əlyazmasının tərtibat qaydaları**

Nəşr üçün təklif olunan **məqalənin əlyazmasının həcmi** ən azı 5 və ən çox 8 səhifədən ibarət olmalı, A4 formatında**,** Microsoft Word mətn redaktorunda Times New Roman 12 şriftlə yığılmalı, səhifənin parametri hər iki tərəfdən -2sm olmalı, abzasda 1 sm boşluq olmalı və sətirlər arası interval eyni olmalıdır.

**Məqalənin məzmunu aşağıdakı ardıcıllıqla müəyyən edilməlidir**:

1. *məqalənin adı* (mərkəzdə qalın şrift ilə) 12 sözdən çox olmamalıdır;
2. Hər bir müəllifin *soyadı, adı və atasının adı* (inisialları deyil) (mərkəzdə qalın şrift ilə), *akademik dərəcə* (əgər varsa), *akademik ünvan* (varsa), *vəzifəsi, şöbə* və ya *kafedranın adı, təşkilatın adı* (qısaltmadan), *şəhər, poçt ünvanı*; Müəlliflərin sayı 3 nəfərdən çox olamamlıdır;
3. İşin mahiyyətini və əldə edilmiş nəticələrini əks etdirən, çox qısa formada *annotasiya* (100-150 söz həcmində);
4. Mətnin əsas mənasını daşıyan *Açar sözlər* (5-8 söz) (tikinti, analiz, sistem, memarlıq, ekologiya və s. Sözlər açar sözlər qismində istifadə oluna bilməz !!!);
5. *1-4-cü bəndlərin ingilis dilində tərcüməsi*
6. *məqalənin mətni* onun quruluşu üçün aşağıdakı tələblərə cavab verməlidir;
7. GOST R 7.0.5-2008-ə uyğun olaraq hazırlanan *ədəbiyyat siyahısı*;
8. Ədəbiyyat siyahısının latınca References başlığı ilə nüsxələnməsi ( bütün ədəbiyyat siyahısını kopyalamaq və https://translit.net/ səhifəsinəki ekrana yerləşdirmək və «В транслит» düyməsinə basmaq. Azərbaycan dilindəki mənbələrdə hərfləri uyğun olaraq növbəti hərflərlə əvəzləmək lazım olacaqdır- ə-e, ı-i, ö-o, ü-u, c-j, ç-ch, ş-sh, q-g. 5-8 səhifəlik məqalədə 12-15 ədəbiyyatdan istifadə edilməlidir.

Məqalənin mətnində ümumi qəbul edilmiş terminologiya riayət olunmalıdır və istifadə edilən bütün xüsusi terminlər, ixtisarlar və simvollar açıqlanmalı və izah edilməlidir.

9.**Məqalə IMRAD qaydasına uyğun olmalıdır.** (*Nədir* ***IMRAD*** *qaydası?* ***I-introduction, M-methods, R-Results (A-and)*** *və* ***D-Discussion*** *kəlmələrinin baş hərflərini əmələ gətirən, yəni* ***Giriş, Metodlar, Nəticələr*** *və****Diskussiya-Müzakirə*** *mərhələlərini əhatə edən məqalə, xüsusilə elmi məqalə yazma qaydasıdır).*

***Düsturlar Equationda*** dəqiq yığılmalıdır. Məqalənin mətnində simvollardan, formul təsvirli əlavələrdən və ya fərdi dəyişənlərdən və funksiyalardan istifadə etmək qəbul edilməzdir.

***Şəkillər və cədvəllər*** yüksək keyfiyyətdə hazırlanmalıdırlar (redaksiyada təsvirlərin qrafiki işlənməsi nəzərdə tutulmur). Hər bir məqalədə mümkün cədvəllərin sayı 3 cədvəl, şəkillərin sayı isə 5-dən çox olmamalıdır. Jurnalda bütün şəkillər ağ-qara formada əks olunurlar. Hər bir şəkil və cədvəl Cədvəl 1. *Cədvəlin adı* və Şəkil 1. *Şəkilin adı* formasında nömrələnməli və adlandırılmalıdır.Cədvəlin nömrəsi və adı cədvəlin üstündə sağ kənarında yerləşdirilir, şəkilin nömrəsi və adı ortada şəklin altında verilir.

***Mənbələrə istinadlar*** ardıcıl xarakter daşıyır ( mətndə qeyd olunma ardıcıllığı ilə) və kvadrat mötərizədə göstərilir ( məsələn, [1], [1,3]). Mətndə ədəbiyyat siyahısından 2 ardıcıl mənbəyə istinad verilirsə, aralıqda "-" işarəsi qeyd olunmalıdır (məsələn [1-3]). Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 3-5 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. İstinadlar siyahısında ən azı 2-3 ədəbiyyat Web of Science Beynəlxaq İstinadlar bazasından olmalıdır. Müəllif məqaləsini plagiata yoxlayıb daha sonra çap üçün təqdim etməlidir. Plagiata yoxlamaq üçün linklər: http://advego.ru/plagiatus/, https://text.ru/antiplagiat, http://www.etxt.ru/antiplagiat/

Redaksiya heyəti tərəfindən universitetin ***Antiplagiat proqramı*** ilə məqalə yoxlanacaq. Plagiatlıq faktı aşkar edilən məqalələr geri qaytarılacaq.

**Məqalənin təqdim olunması:** Məqalə 5-8 səhifə, A4 formatda, ağ kağızda çap olunmalı, səhifələnməli və ilkin yoxlanılması üçün redaksiyaya təqdim olunmalı (AzMİU, I korpus, 12-ci mərtəbə, 1207-ci otaq) və ya **sw@azmiu.edu.az** göndərilə bilər.Məqaləyə əlavə olunan sənədlər: ekspert- rəyi (əlavə 1); məqaləni çapa tövsiyə edən kafedranın iclas protokolundan çıxarış (əlavə 2); 2 mütəxəssis rəyi- rəyçinin adı tam şəkildə, elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri göstərilir (əlavə 3); kənar təşkilatlar üçün icazə məktubu əlavə olunmalıdır (əlavə 4).

**Məqalənin qəbul olunması:**Redaksiya heyəti məqalədə lazımi düzəlişlər etmək və məqalənin əsas məzmununa xələl gətirməyən ixtisarlar aparmaq hüququna malikdir. Məqalə redaksiya heyətinin müəyyən etdiyi iki rəyçiyə göndərilir. Hər iki rəy müsbət olduqda məqalə qəbul edilir. Rəylərdən biri mənfi biri müsbət olduqda məqalə üçüncü rəyçiyə göndərilir. Məqalə yuxarıdakı tələblərə cavab verməzsə baxılmaq üçün qəbul edilmir və müəllifə geri qaytarılır. Çap üçün məqbul sayılmayan məqalə redaksiya heyətinin göstərdiyi təlimatlardan sonra müəllif tərəfindən düzəliş edilərək sonra yenidən baxılması üçün redaksiya heyətinə təqdim oluna bilər. Redaksiyaya təqdim edilən əlyazmaların dərc edilib-edilməməsinə resenzentlərin rəyindən sonra növbəlilik prinsipi əsasında qərar verilir.

## ETİKA VƏ PLAGİATLA MÜBARİZƏ

**Əlyazmanı təqdim edən müəllif aşağıdakı prinsipləri əsas götürməlidir:**

- Təqdim olumuş əsərlərdə aparılmış tədqiqatların etibarlı nəticələri əks olunmalıdır;
- Müəlliflərdən orijinal işlər təqdim etmələri tələb olunur, digər məlumatlardan istifadə zamanı mütləq şəkildə ilkin mənbəyə istinad olunmalıdır; qeyri-qanuni köçürmələrə yol vermək olmaz, elmi əsərdə digər mənbələrə yüksək faizdə istinad olnunması, və ya onun bütövlüklə plagiat olması qəbul edilə bilməz;
- Məqalədə tədqiqat sahəsinin inkişafına öz töhfəsini vermiş hər bir şəxs vurğulanmalıdır;
- Digər jurnalda artıq dərc olunmuş və yaxud dərc olunmaq üçün baxışdan keçirilməkdə olan əlyazmanın ötürülməsi yolverilməzdir;
- Məqalədə hər hansı bir qeyri dəqiq və yaxud yalnış məlumat aşkar edildiyi zaman faktla bağlı redaksiyanı vaxtında məlumatlandırmaq mütləqdir;

***Redaksiya müəllif işlərinin jurnalda yerləşdirilməsinə görə məsuliyyət daşıyır və bu səbəbdən aşağıda qeyd olunan prinsiplərə ciddi şəkildə riayət edir*:**

- Redaksiya elmi əsərlərin nəşrinə icazə vermək üçün qərar qəbul etdiyi zaman məqalədə yerləşdirilən materialların etibarlılığını, eləcə də onun elmi dəyərini əsas götürür;
- Redaksiya bir hissəsi və yaxud tamamilə plagiat olan məqalələrin dərc olunmasına icazə verməməlidir;
- Məqalənin dərc olunması ilə bağlı qərar qəbul edilərkən irqi, cinsi, dini, mənşəyi, vətəndaşlıq və siyasi inanclarına görə ayrı seçkiliyə yol vermək olmaz;
- Redaksiya baxış üçün təqdim olunmuş materialların konfedensiallığına zəmanət verir;
- Redaksiya yaranmış konfliklərdə iştirak etməli və onların həlli üçün müvafiq tədbirlər həyata keçirməlidir.

***Elmi əsərlərin yoxlanılmasında resenzentin fəaliyyəti mühüm rol oynayır və bu səbəbdən onların aşağıdakı prinsiplərə şərtsiz əməl etmələri nəzərdə tutulur:***

- Müəyyən tədqiqat materiallarının nəzərdən keçirilməsi üçün yetərincə ixtisaslı olmadığını və yaxud resenziyalaşdırma müddətinə riayət edə biləcəyindən şübhəsi olan resenzent vaxtında redaksiyanı bu barədə məlumatlandırmalıdır;
- Resenzent konfedensiallıq şərtlərinə əməl etməli və bu səbəbdən əsəri buna səlahiyyəti çatmayan şəxslərə tanış olmaları və müzakirə etmələri üçün ötürməməlidir;
- Müəllifin yazılı razılığı olmadan dərc olunmamış məlumatların şəxsi məqsədlə istifadəsi qadağandır;
- Tədqiqatın bu qəbildən olan digər əsərlərlə oxşarlığı aşkar edildiyi zaman resenzent redaksiyanı dərhal bu barədə məlumatlandırmalıdır;
- Elmi əsər barəsində rəy qərəzsiz və obyektiv olmalı, qeyd edilən şərhlər əsaslandırılmalıdır. Müəllifə qarşı şəxsi tənqid qətiyyən yolverilməzdir.
- Dərc olunan məqalələrin keyfiyyətinin təmin olunması və müəllif hüquqlarının qorunması məqsədilə jurnalın redaksiyasına göndərilən bütün məqalələr "Strikeplagiarism" sistemi vasitəsilə plagiat (köçürmənin mövcudluğu) baxımından yoxlanılır. Yoxlanış zamanı OƏ1 60%-ı və OƏ2 10%-i aşan məqalələr dərc olunmur.

***Aşağıdakı hallar redaksiya tərəfindən* plagiat *sayılır:***

- İstənilən miqyasda istənilən işin mənbəyə istinad olunmadan istifadəsi;
- Şəkil, rəsm, foto, cədvəl, qrafik, sxem və digər formalı qrafik informasiyanın mənbəyi göstərilmədən istifadə olunması;
- Elmi və məhşur nəşriyyatlarda dərc olunmuş şəkil, rəsm, foto, cədvəl, qrafik, sxem və digər formalı qrafik informasiyanın müəlliflik hüququ daşıyanın razılığı olmadan istifadəsi;
- müəlliflər və yaxud hüquqi sahiblərinin xüsusi razılığı olmadan istifadəsi olunması qadağan edilmiş informasiyadan istifadə.